# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin

## 2008-2010 cu illər üçün

# STRATEJİ İŞ PLANI

**“Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar sahədə hökumətin ən etibarlı dayaqlarından birinə çevrilib.”**

Dövlətin prioritet sahələrindən biri olan humanitar siyasətin inkişafına yetərincə önəm verilməsi, beynəlxalq humanitar təşkilatların respublikamızda öz nümayəndəliklərini açaraq fəaliyyət göstərmələri, eyni zamanda yerli humanitar təşkilatların fəaliyyətinin müasir tələblər səviyyəsində həyata keçirilməsi üçün yaradılan şərait, bir daha dövlətin vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində həyata keçirdiyi işlərin bariz nümunəsidir.
Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC) 88 illik şərəfli tarixi yol keçmiş, hər zaman humanitar sahədə xalqın rifahı naminə yorulmadan çalışan, humanizm, mərhəmət və xeyirxahlıq kimi hissləri özündə təcəssüm etdirən Milli Cəmiyyət olaraq daima dövlətin qayğısı ilə əhatə olunmuşdur. Inkişaf etmiş digər Milli Cəmiyyətlərin müasir iş təcrübəsini özünün praktik fəaliyyətinə tətbiq edən Az.QAC, həmçinin, həyata keçirilən uğurlu fəaliyyəti zamanı qazandığı nailiyyətləri Beynəlxalq Hərəkatın təmsilçiləri tərəfindən yüksək dəyərləndirilir. Fəaliyyətimizi daha da gücləndirmək məqsədilə dövlətin dəstəyinə zərurət olduğunu nəzərə alan möhtərəm Prezidentimiz, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü İlham Əliyev cənabları 2004-cü il yanvar ayının 31-də «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam imzaladı. Bu tarixi sənəd Beynəlxalq Federasıyaya üzv olan dövlətlərə nümunə kimi tövsiyə olunurdu.

Məhz Cəmiyyətimiz bu inkişaf mərhələlərini keçdikdən sonra cəmiyyətimizin fəxri üzvü olan Prezidentimiz **İ**lham Əliyev cənablarının qanunvericilik təşəbbüsü ilə QAC haqqında qanun layihəsi parlamentin müzakirəsinə təqdim olundu və çox sevindirici haldır ki, qanun 23 may 2007-ci il tarixində mətbuat orqanlarında dərc olunaraq qüvvəyə mindi. Bu fakt bir daha dövlətin Qızıl Aypara Cəmiyyətinə olan müsbət münasibətinin bariz nümunəsidir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin respublikada həyata keçirdiyi müxtəlif sosial-tibbi layihələri əhalinin sağlamlığı və fəlakətlər zamanı davranış qaydalarının mənimsənilməsi istiqamətində kifayət qədər uğurların əldə edilməsinə zəmin yaratmışdır. Icma iştiraklı inkişaf metodunun yerlərdə tətbiqi üzrə həyata keçirilən proqramlar, insan resurslarının maksimum səfərbər edilməsi, qarşıya çıxan problemlərin həllinə birgə çalışmaları, yerli icra orqanları ilə qarşılıqlı işgüzar münasibətlərin möhkəmlənməsi regionların sosial-iqtisadi inkişafına verilən ən böyük töhfələrdəndir.
Az.QAC-ın strategiyası Beynəlxalq Hərəkatın standartlarına uyğun və fundamental prinsiplər əsasında qurulmuşdur. Bu da bütün Milli Cəmiyyətlərin, o cümlədən də Az.QAC-ın Beynəlxalq Hərəkat çərçivəsində daha sıx əməkdaşlıq edərək humanitar dəyərlərin aşılanması istiqamətində uğurlu fəaliyyətini təmin etmişdir. Az.QAC-ın 2008-2010 cu illər üçün Strateji planının əsas prioriteti Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi sayəsində mərkəzi və yerli fəaliyyətini daha da səmərəli edərək ehtiyacları təmin etməkdən ibarətdir. Bütün bunlar bir daha Milli Cəmiyyətin uğurlarından xəbər verir və bu uğurların davamlılıtğını təmin etmək üçün Az.QAC bütün mümkün vasitə və imkanlardan istifadə edir. Sonda onu vurğulamaq istəyirəm ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ümumxalq Cəmiyyətidir və hər bir Azərbaycan vətəndaşı həyata keçirilən bu nəcib və xeyirxah missiyanın müşahidəçisi kimi deyil, iştirakçısı olaraq əməli işlər görməlidir...

**Cəmiyyətin Prezidenti**
**Milli Məclisin Deputatı** **Dr. Novruz Aslanov**

**MÜQƏDDİMƏ**

Strateji Planın Qısa Xülasəsi-----------------------------------------------------------səh 5

Fövqəladə Hallar------------------------------------------------------------------------ səh 7

Sağlamlıq ------------------------------------------------------------------------------------səh 10

Humanitar Dəyərlər---------------------------------------------------------------------səh 13

Təşkilati inkişafı-------------------------------------------------------------------------səh 14

Maliyyə----------------------------------------------------------------------------------------səh 15

Gənclər və Könüllülər -----------------------------------------------------------------səh 18

Əlavələr----------------------------------------------------------------------------------------səh 20

## *QISA XÜLASƏ*

*«.........Əmin olduğumu bildirmək istəyirəm ki, Qızıl Aypara Cəmiyyəti öz imkanlarından daha geniş istifadə edərək müstəqil Azərbaycanın sosial və insani problemlərinin həlli istiqamətində aparılan işlərdə dövlətin ən yaxın köməkçisinə çevriləcəkdir»*

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 80 illiyi ilə əlaqədar göndərdiyi təbrik məktubundan.

**10 mart 1920-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranma günü

**1920-1991,** Sovet İttifaqı Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Liqasının üzvü

**25 noyabr 1994-cü il**
Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında» qərarı ilə Milli Cəmiyyətin tanınması

**01 noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyəti Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmışdır.

**26 Noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının daimi, bərabər hüquqlu, həqiqi üzvü seçilmişdir.

**5 Sentyabr 2003-cü il**
Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» Sərəncamı

**31 Yanvar 2004-cü il**
Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, möhtərəm, İlham Əliyev «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam imzalamışdır

**08 May 2007-ci il**
Azərbaycan Respublikası Prezidenti zati-aliləri möhtərəm, İlham Əliyevin təşəbbüsü ilə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanun qəbul edilmişdir.

1920-ci ilin mart ayında Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış Qızıl Aypara Cəmiyyəti fəaliyyətə başladığı gündən ölkəmizin sosial və insani problemlərinin həllində, xalqımızın xeyirxahlıq təşəbbüslərinin, ənənələrinin inkişafında önəmli rol oynamışdır.

Qədim xeyriyyəçilik ənənələrinə malik olan Azərbaycanda Qızıl Aypara Cəmiyyəti Xalq Cümhuriyyətinin süqutundan sonra da öz fəaliyyətini davam etdirmiş, ölkəmizin sosial həyatında mühüm rol oynamışdır. Müharibələrdən və təbii fəlakətlərdən zərər çəkmiş vətəndaşlara yardım etmək, əhalinin maddi cəhətdən imkansız hissəsinə əl tutmaq kimi nəcib məqsədlərə xidmət edən cəmiyyət öz fəaliyyətinin bütün mərhələlərində həyata keçirdiyi humanist xarakterli tədbirləri ilə xalqın dərin hörmət və məhəbbətini qazanmışdır.

Vaxtilə ölkəmizdə tüğyan edən malyariya, vəba, vərəm, difteriya, və başqa xəstəliklərin qarşısının alınmasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sanitar dəstələrinin mühüm rolu olmuşdur. 1941-1945-ci illər müharibəsi dövründə cəmiyyətin şəfqət bacılarının yaralılara göstərdikləri hərtərəfli xidmət indi də insanların yaddaşında yaşayır.

İftixar hissi ilə qeyd etməliyik ki, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək mükafatına – «Florens Naytingel» medalına layiq görülənlər arasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin şəfqət bacıları da vardır.

1992-2000-ci illərdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının tərkib hissəsi olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin, bu qəbildən olan digər Azərbaycan vətəndaşlarının iztirablarının azaldılması sahəsində faydalı iş aparmışdır.

Hal-hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyəti Humanitar dəyərlərin yayımı, Fövqəladə hallara hazırlıq və yardım, Axtarış xidməti, İlk yardım, Sağlamlıq və qayğı, Miqrasiya, Gənclər və könüllülər, Yerli Komitələrin inkişafı, Humanitar yardım və s. fəaliyyətləri həyata keçirir.

Bütün bu fəaliyyətlər 7 Regional Mərkəz, 92 rayon və şəhər bölmələri vasitəsilə həyata keçirir. Cəmiyyətin 230 mindən artıq üzvü və 16 minə yaxın könüllüsü vardır.

## QISA XÜLASƏ

### MİSSİYA
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək

### TƏSVİR
Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək

### Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının fundamental prinsipləri

**HUMANİZM**
Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

**QƏRƏZSİZLİK**
Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

**NEYTRALLIQ**
Hamının ona olan inamını qoryub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

**MÜSTƏQİLLİK**
Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

**KÖNÜLLÜ XİDMƏT**
Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

**VAHİDLİK**
Bir ölkədə yalnız bir Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görmələdir.

**UNİVERSALLIQ**
Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birlərinə kömək etməyə borcludurlar.

### STRATEJİ PLANIN ALİ MƏQSƏDİ
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi vasitəsilə, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətlərin həyata keçirilməsi

**Strateji məqsədlər**

1. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər etməklə və fəlakətlərin İdarə edilməsi sisteminin təkmilləşdirilməsi vasitəsilə Fövqəladə Hallara hazırlıq və cavabvermə imkanlarını artırmaq

2. Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə əhalinin sağlamlığı barəsində biliklərini artırmaq.

3. Humanitar Dəyərləri, İnsan Davraşının dözümlülük, qeyri- diskriminasiya, insana hörmət istiqamətində dəyişməsində səylər göstərmək və BHH-un əsasları və QX/QAH-nın, Fundamental Prinsipləri yaymaqla insanları humanizmə yer üzündə sülhün bərqərar olmasına təmin etmək.

4. Azərbycan Qızıl Aypara Cəmiyyətinin infrastrukturunu genişləndirmək (yeni bölmələrin və üzvlərin sayının artırılması) o cümlədən Naxçıvan Muxtar Respublikası Komitəsi, Regional mərkəzlər, rayon və şəhər bölmələrin fəaliyyətlərini təkmilləşdirmək və bununla daha effektiv, keyfiyyətli, yerli ehtiyaclara cavab verən xidmətlərin göstərilməsi.

5. Qızıl Aypara Cəmiyyətində Gənclər və könüllülərin idarəetmə, cəlb olunma və qeydiyyatnın yaxşılaşdırılması məqsədilə effektiv Gənclər və Könüllülər idarəetmə sisteminin inkişaf etdlirilməsi və bununla Azərbaycanın bütün ərazisində QAC-nin bütün strukturlarının vasitəsi ilə sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin artırılması.

6. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə stabil maddi-texniki bazanın yaradılması.

**FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında Azərbaycan Respublikasının Qanununun 3.0.3. maddəsini əsas tutaraq Cəmiyyətin tərkib hissəsi olan qeyri-dövlət təcili yardım xidmətini təşkil edir, silahlı münaqişələrin qurbanları və fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslər üçün düşərgələrin fəaliyyətini təmin edir, fövqəladə hallarda əhaliyə ödənişsiz zəruri tibbi və sosial yardım göstərir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsini əsas tutaraq AzQAC müxtəlif təbii fəlakətlərdən zərər çəkənlərə imkanı daxilində təxirə salınmaz yardım göstərir və Qızıl Xaç və Qızıl Aypara və digər beynəlxalq təşkilatlar xətti ilə Cəmiyyətə ünvanlanan və Respublikaya daxil olan digər beynəlxalq humanitar yardımların zərər çəkmiş insanlara çatdırılmasını təşkil edir. Bundan başqa fəlakətin vurduğu ziyanın tez bir zamanda aradan qaldırılması məqsədilə fövqəladə hallara hazırlıq işlərini aparır, bu məqsədlə özünün regional və yerli strukturlarının maddi-texniki bazasını yaradır və onu gücləndirir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi 2000-ci ildə təsis edilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin vəzifəsi fəlakətlərdən (təbii və texnogen fəlakətlər, əhalinin yerdəyişməsi, məişət yanğınları və s.r.) zərərçəkmiş insanlara – vəziyyəti və ehtiyacları qiymətləndirərək «Psixoloji Yardım» və ilkin «Humanitar Yardım» göstərməkdən ibarətdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti əhali (icmalar) arasında fövqəladə hallara hazırlıq fəaliyyətlərini 7 Regional Mərkəz (Bakı, Naxçıvan Muxtar Respublikası Komitəsi, Sumqayıt, Sabirabad, Lənkəran, Gəncə və Mingəçevir) vasitəsi ilə həyata keçirir. Regional Mərkəzin hər birinə aid olan yerli komitələrin işçiləri və cəlb edilmiş könüllülər müvafiq treyninqlər vasitəsi ilə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə sahəsində bilik və bacarıqlarını artırırlar.

2003-cü ildə hazırlanmış İmkanlığın və İmkansızlığın Qiymətləndirilməsi (İİQ) məcmuəsinə əsaslanaraq fəlakətlərə meylli zonalarda əhalinin fəlakətlərə qarşı cavabvermə imkanlarının artırılması istiqamətində xəbərdarlıq kampaniyaları aparılır. Bu kampaniyalarda əsasən, əhalinin fəlakət barəsində məlumatlılığının artırılmasına (maariflənməsinə) və fəlakət risklərinin azaldılmasına üstünlük verilir.

1999-2007-ci illər ərzində ölkəmizin müxtəlif rayonlarında baş vermiş fövqəladə hallar zamanı 5022 ailəyə (16066 nəfər) adyal, döşək, mətbəx avadanlığı, elektrik qızdırıcısı, səyyar qaz plitəsi, yataq dəstləri, ayaqqabı, paltar, gigiyenik dəstlər, çadır və s. qismində ilkin humanitar yardım göstərilmişdir.

1999-cu ildə Bakı şəhərində Sabunçu qəsəbəsində leysan yağışlar, sel
2000-ci idə Bakı şəhərində dağ sürüşməsi (Bayıl qəsəbəsində) və zəlzələ
2001-ci ildə Gəncə şəhərində 22 evin yanması
2002-2003-cü illərdə, Salyan, Neftçala və Sabirabad rayonlarında daşqınlar
2004-cü ildə Yanğınlar (Daşkəsən rayonu)
2005-ci ildə Sel (Qəbələ rayonu)
2006-cı ildə leysan yağışlar (Əli-Bayramlı şəhərində)
2007-ci ildə leysan yağışlar, yanğınlar (Lerik, Şəki)

Respublikada fəlakətlərin elmi təhlilini aparmaq, baş verə biləcək fəlakətlərin qarşısını almaq və öhdəsindən gəlmək məqsədilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə qarşılıqlı Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında 2004-cü il Mayın 19-da işbirliyi haqda saziş imzalanmışdır.

Respublikada fövqəladə hallar nəticəsində baş vermiş böhran və çətinliklər zamanı əhaliyə dəymiş maddi və mənəvi ziyanın aradan qaldırılması ilə əlaqədar xüsusi tədbirləri həyata keçirmək və müvafiq yardımın göstərilməsi ilə bağlı əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək məqsədilə, 2006-cı il Noyabrın 11-də Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında qarşılıqlı razılaşma memorandumu imzalanmışdır.

2008-ci ildən başlayaraq Azərbaycan Qızıl Aypara Cəmiyyəti ANAMA (Azərbaycan ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik) ilə imzaladmış Anlaşma Memorandumuna əsasən minadan əziyyət çəkənlər haqda məlumatların toplanması işini həyata keçirəcəkdir.

**Strateji məqsəd:**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər etməklə və fəlakətlərin İdarə edilməsi sisteminin təkmilləşdirilməsi vasitəsilə Fövqəladə Hallara hazırlıq və cavabvermə imkanlarını artırmaq

## <u>VƏZİFƏLƏR</u>

**Vəzifə 1. Qızıl Aypara Cəmiyyətinin fəlakətlərin İdarə edilməsi sisteminin təkmilləşdirilməsi**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlığın gücləndirilməsi
Milli fəlakətlərin İdarə edilməsi sistemində Qızıl Aypara Cəmiyyətinin rolunun müəyyən edilməsi
AzQAC-ın Fəlakətin İdarə edilməsi üçün gözlənilməz hallara cavabvermə planının hazırlanması
AzQAC-ın Fəlakətlərə Cavabvermə imkanlarının artırılması

**Vəzifə 2. Fəlakət qurbanlarına olan humanitar xidmətlərin keyfiyyətinin yaxşılaşdırmaq.**

AzQAC-ın işçi və könüllülərinə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə, telekommunikasiya, ilk psixoloji yardım, Humanitar yardım, Miqrasiya və Axtarış üzrə Treyninq və seminarların keçirilməsi
"Minalara Qarşı Mübarizə" fəaliyyətlərinin gücləndirilməsi
Fəlakətlərə vaxtında və səmərəli cavab vermək üçün anbarların və anbar strukturlarının gücləndirilməsi

**Vəzifə 3. İcma əsaslı Fəlakətlərə hazırlıq işinin gücləndirilməsi**

Fəlakətlərə meylli ərazilərdə İcmanın Fəlakət barədə məlumatlılığının artırılması
Fəlakətlərə meylli ərazilərdə risk azaltma tədbirlərinin həyata keçirilməsi

**Vəzifə 4. Fəlakət nəticəsində İtkin düşmüş ailə üzvlərinə axtarış və ailələrin bərpası üzrə köməklik göstərmək və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı itkin düşmüş şəxslərə dair Ətraflı Məlumatların Toplanılması.**

-Fəlakətlər zamanı Axtarış işinin təkmilləşdirilməsi məqsədilə Fəlakətlərə Hazırlıq və Cavabvermə fəaliyyətlərinin tərkib hissəsi kimi Axtarış strategiyasının hazırlanması.
-Yerli bölmələrdə işçilərə və icmalarda könüllülərə axtarış sahəsində təlimlərin keçirilməsi.
-Axtarış sahəsində Hökumət və qeyri hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi.
-Azərbaycan Respublikasının ərazisində itkin düşmüş şəxslərə dair Ətraflı Məlumatların Toplanılmasını təşkil etmək.

## Fəaliyyət göstəriciləri

-2008 ci ildə AzQAC-ın Milli səviyyədə fəlakətlərin İdarə edilməsi sistemində aydın rol və öhdəlikləri - təyin olunmuş və bu barədə tərəfdaşlar məlumatlandırılmışdır.

-2008 ci ilin sonu üçün AzQAC-ın Fəlakətin İdarə edilməsi üçün gözlənilməz hallara cavabvermə planı hazırlanmış və tərəfdaşlara paylanmışdır.
-2008 ci ildə AzQAC-ın 7 Regional Mərkəzinin hər birində təlim keçmiş Mobil Könüllü dəstələr fəaliyyət göstərəcək.
-2009 cu ilin sonunda AzQAC-ın 7 Regional Mərkəzinin hər birində güclü anbar sistemi qurulmuşdur.
-2010 cu ildə bütün anbarlarda fövqəladə hallara cavabvermə məqsədilə 500 ailəlik (500 X 5=2500 nəfər) yardım materialları olacaqdır.
-2009 cu ildə Sumqayıt Regional Mərkəzində Fəlakətlərə cavabvermə üçün anbar yaradılmış və 50 ailəlik yardım materialları ilə təmin edilmişdir.
-2008 ci ilin sonunda AzQAC-ın 7 Regional Mərkəzinin hər birində güclü telekommunikasiya sistemi fəaliyyət göstərəcəkdir.
-2008-ci ildə Fəlakətlərə Hazırlıq və Cavabvermə fəaliyyətlərinin tərkib hissəsi kimi Axtarış strategiyası hazırlanmışdır.
-2008-ci ildə Az.QAC-ın Axtarış siyasəti tərəfdaşlarla müzakirə edilmiş və təsdiq edilmişdir.
-2009-ci ildə AzQAC-ın 7 Regional Mərkəzinin hər birində könüllülər üçün təlim mərkəzləri fəaliyyət göstərəcəkdir.
-2009 cu ilin sonunda Fəlakətə meyilli ərazilərdə Fəlakətə hazırlıq fəaliyyətlərini həyata keçirən 50 icma qrupu yaradılacaq.
-2009-2010 cu illərdə qrup liderləri ardıcıl treyninqlər keçməlidirlər
-Fövqəladə hallarda əhalinin yerdəyişməsi (miqrasiyası) zamanı zavallı insanların yerləşdirildiyi ünvanların qeydiyyatı, onların ehtiyaclarının qiymətləndirilməsi və qismən təmin edilməsi proseslərində QAC-nin könüllülərindən istifadə etməklə 7 regional mərkəzdə 2008-2009-cu illərdə 7 treyninq keçirməklə 210 nəfər təlimatçı hazırlanmışdır.
-2008 ci ildə Mina Risklərinin Azaldılması strategiyası üzrə həyata keçirilən «Təhlükəsiz Oyun Meydançaları» layihəsi cəbhə yaxınlığında yerləşən daha 7 mina təhlükəli kənddə reallaşacaq.
-2008 ci ildən Qızıl Aypara Azərbaycanda mina problemlərinin həlli istiqamətində fəaliyyət göstərən rəsmi tanınmış təşkilat kimi Azərbaycanın milli mina fəaliyyətləri planında öz yerini tutacaqdır.
-Axtarış sahəsində Hökumət və qeyri hökumət təşkilatları ilə əməkdaşlıq gücləndiriləcək.
-11 Rayon bölmələrində Axtarış sahəsində işçi heyətinə təlimlər keçiriləcək.
-Bütün Ailə əlaqələrinin bərpası prosedurları standartlaşdırılacaq
- Ailə əlaqələrinin bərpasına dair qaydalar hazırlanmışdır
-2008 ci ildə zavallılara, Humanitar Yardımın paylanması qaydalarına dair təlimat hazırlanacaq və 7 Regional Mərkəzin hər birində Humanitar Yardım işinın təşkili barədə seminar-treyninq keçirələcək.
-2010 cu ilə qədər Azərbaycan Respublikasının ərazisində 3.000-dək itkin düşmüş şəxslər haqqında Ətraflı Məlumatların Toplanılmasını təşkil etmək

**Fəaliyyətə təsir edən amillər:**

-Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlıq
-Tərəfdaşlarla uzun müddətli razılığın əldə edilməsi
-Maliyyə, maddi texniki baza
-Şöbənin işçi və könüllülərinin sayı

## SAĞLAMLIQ VƏ QAYĞI

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində əhali arasında geniş səhiyyə maarifi işinin aparılması mühüm yer tutur ki, respublika bölgələrində icmalarla əməkdaşlıq şəraitində Milli Cəmiyyət tərəfindən təlimatlandırılmış könüllü sağlamlıq işçiləri və işçi heyəti vasitəsilə əhalinin tibbi biliklərinin artırılması, eyni zamanda səhiyyənin inkişafı üçün əsas şərtlərdən biri olan əhəmiyyətli səhiyyə maarifi işini həyata keçirir.

2001–ci ilin yanvar ayından başlayaraq ölkənin bütün regionlarında Milli Cəmiyyət tərəfindən aparılan «İcmaya əsaslanan sağlamlıq» proqramı çərçivəsində **58646** nəfər əhali arasında ətraf mühit, ümumi və şəxsi gigiyena, düzgün qidalanma, uşaqlara peyvənd olunmasının vacibliyi, infeksion xəstəliklər, ailə planlaşdırılması, HİV/AİDS, süd vəzisinin xərçəngi və onun profilaktikası kimi mövzulara dair maarifləndirmə işləri aparılmışdır. 2003-cü ildən başlayan «Azərbaycanda könüllü təmənnasız donorluğun inkişafı» adlı proqram Norvec

Qızıl Xaç Cəmiyyəti tərəfindən dəstəklənən layihə Bakı, Gəncə, Mingəçevir və Sabirabad Regional Mərkəzlərində həyata keçirilir. 2004-2007-ci illər ərzində Milli Cəmiyyət tərəfindən aparılan, «Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafı» adlı proqram çərçivəsində Bakı, Gəncə, Sabirabad, Mingəçevir Region mərkəzlərinin təlimatlandırılmış **76** nəfər könüllüsü tərəfindən **29165** nəfər qan donorluğu haqqında maarifləndirilmiş, **2488** nəfər isə könüllü təmənnasız qan vermişdir.

2006-cı ildə AzQAC vərəmin yayılmasının qarşısını almaq, azadlığa buraxılan vərəmli məhkumların vərəmə qarşı zavallılığını azaltmaq və eyni zamanda onların vərəm xəstəliyindən sağalması üçün «Azadlığa buraxılan vərəmli məhkumlarının davamlı müalicəsinə nəzarət» adlı pilot layihəyə başlamışdır. Proqram Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə aparılmışdır. Proqram çərçivəsində AzQAC-nin **6** nəfər tibb bacısı Bakının Nərimanov, Sabunçu, Yasamal, Qaradaq, Binəqədi, Əzizbəyov rayonlarında yaşayan azadlığa buraxılan məhkumların vərəm xəstəliyinə qarşı davamlı DOTS müalicəsinə nəzarət etmişdirlər.

Proqram çərçivəsində 2006-2007 ci illər ərzində **66** nəfər xəstə əhatə olunmuşdur ki, onlardan **52** nəfər DOTS müalicəsini bitirmişdir. Digər xəstələr isə müalicəni davam etdirməkdədirlər.

2008-2010 cu illər üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti «Tibbi-sosial» proqramlar çərçivəsində azadlığa buraxılan məhkumların, o cümlədən adi vərəmə düçar olmuş xəstələrin davamlı DOTS müalicəsinə nəzarət edillməsi, onlara tibbi psixo-sosial qayğının göstərilməsi, respublikada könüllü təmənnasız qan donorluğunun inkişafı üçün sağlam həyat tərzinin təbliğatını aparan mütəmadi qan donorlarından ibarət «Klub-25» yaradılması, tibb bacıları və könüllü sağlamlıq işçilərinin hazırlanması və təkmilləşdirilməsi, əhali arasında geniş səhiyyə maarifi işinin təşkili kimi fəaliyyətlərin aparılmasını nəzərdə tutub.

30 Dekabr 2007-ci il tarixdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) arasında Respublikada xəstələnmə və ölüm hallarının azaldılması, əhalinin sağlamlığına mənfi təsir göstərən amillərin, təhlükəli olan QİÇS, vərəm, malyariya, narkomaniya, alkoqolizm və digər xəstəliklərin qarşısının alınmasına dair əhali arasında səhiyyə maarifi işinin təşkili, qana ehtiyacı olan xəstələrin təhlükəsiz qan və onun komponentləri ilə təmin olunması, Fövqəladə hallara hazırlıq və Fövqəladə hallar zamanı içtimai səhiyyə və ilk yardım sahəsində maarifləndirmə işlərinin aparılması üzrə razılaşma imzalanıb.

**Strateji məqsəd**
Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə əhalinin sağlamlığı barəsində biliklərini artırmaq.

## <u>VƏZİFƏLƏR</u>

### Vəzifə 1. İcmaya əsaslanan səhiyyə maarifi işinin təşkili.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Yerli Bömələrində və Regional Mərkəzlərində fəaliyyət göstərən sağlamlıq işçiləri vasitəsilə icmaları xəstəliklər barəsində məlumatlandırmaq, əyani vəsaitlər paylamaq, içtimai səhiyyə ilə bağlı geniş tədbirlər və kompaniyalar təşkil etməklə əhalinin sağlamlığı (xəstəliklərin qarşısının alınması) barəsində biliklərini artırmaq.

Respublikada içtimai səhiyyə sahəsində fəaliyyət göstərən dövlət və geyri-dövlət təşkilatları ilə əməkdaşlığı davam etdirərək, əhalinin sağlamlığının yaxşılaşdırmasına və xəstəliklərin sayının azaldılmasına çalışacaq.

-AzQAC-nin Yerli Bölmələri və RM-də könüllü sağlamlıq işçilərini cəlb etmək;
-AzQAC-nin sağlamlıq işçilərinə içtimai səhiyyə ilə bağlı təlim-məşğələlər təşkil etmək;
Əhalinin sağlamlıqla bağlı problemlərə aid sorğular aparmaq;
-AzQAC-nin Yerli bölmələri və RM-də könüllü sağlamlıq işçiləri tərəfindən əhali arasında səhiyə ilə bağlı tədbirlər təşkil etmək;

**Vəzifə 2. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə hallara hazırlıq və Fövqəladə hallar zamanı səhiyyə sistemin təşkili.**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Yerli bölmələrində və Regional Mərkəzlərində fəaliyyət göstərən və yeni yaradılmış könüllülərdən ibarət ilk yardım dəstələri tərəfindən əhali arasında ilk yardım vərdişləri aşılanacaq. Regional Mərkəzlər, Yerli bölmələrin işçi heyəti və İlk yardım dəstələrinin üzvləri Fövqəladə Hallara hazırlıq və Fövqəladə Hallar zamanı ilk yardımın aparılması və səhiyyə sisteminin təşkili barəsində bilikləri əldə edəcək.

-AzQAC-nin YB və RM-də könüllülərdən ibarət ilk yardım dəstələrini yaratmaq;
İcmaya əsaslanan İlk Yardım, Fövqəladə hallara hazırlıq və Fövqəladə hallar zamanı ilk yardımın, zərər çəkənə psixoloji yardımın aparılması və səhiyyə sisteminin təşkili barəsində təlim-məşğələlər keçirmək;
-AzQAC-nin YB və RM könüllülərdən ibarət ilk yardım dəstələri arasında yarışma-simulyasiyalarını təşkil etmək;
-AzQAC-nin RM-də İcmaya əsaslanan İlk Yardım üzrə təlim mərkəzlərini yaratmaq;

**Vəzifə 3. Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olmaq.**

AzQAC-ti qan donorluğu sahəsində Səhiyyə Nazirliyi B. Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu ilə əməkdaşlığı davam etdirərək əhali arasında könüllü təmənnasız qan donorluğu sahəsində təşkil olunan tədbirlərinin (sorğuların aparılması, təlim-məşğələlərin və təbliğat kampaniyaları) təşkili vasitəsilə respublikada könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olacaq.

-AzQAC-nin YB və RM-də könüllülərdən ibarət qruplar yaratmaq;
-AzQAC-nin YB və RM-də könüllü təmənnasız qan donorlarından ibarət Klub-25 şəbəkəsini yaratmaq;
-Könüllü təmənnasız qan donorluğuna aid təlim-tədbirlərin təşki etmək;
-Əhali arasında könüllü təmənnasız qan donorluğuna aid sorğuların aparmaq;
-Əhali arasında geniş təbliğat kampaniyalarının təşkil etmək;
-Kütləvi qanvermə aksiyalarını təşkil etmək;

**Vəzifə 4. Səhiyyə xidmətləri vasitəsilə əhalinin sağlamlığını yaxşılaşdırmaq, xəstəliklərin sayı və insanların zavallılığını azaltmaq.**

AzQACnin YB və RM-in tibb bacıları tərəfindən aparılan tənha kimsəsiz xəstələrə və evdə xüsusi qayğıya ehtiyacı olan insanlara qulluq və müalicəsinə nəzarət kimi tibbi-patronaj fəaliyyəti nəticəsində həmin insanlara diqqət və qayğı artırılacaq, onların zavallılığı azalacaq.

-AzQAC-nin YB və RM-də patronaj tibb bacılarının şəbəkəsini yaratmaq;
-AzQAC-nin YB və RM-də patronaj tibb bacılarının təkmilləşdirilməsinə (evdə qulluq, sosial iş, psixoloji dəstək) dair təlimlər təşkil etmək;
-İçtimai səhiyyə ilə bağlı tədbirləri təşkil etmək;
-AİDS və TB haqqında əhali arasında xəbərdarlığın artırılması məqsədilə maarifləndirmə işlərinin aparılması və xəstələrə qarşı stiqmanın azadılması

**Fəaliyyət Göstəriciləri**

-Sağlamlıq qrupunun fəaliyyəti sahəsində 2008-ci ildə **-25.000;** 2009- ci ildə**- 27.000;**
2010-cu ildə isə **30.000** əhali sağlamlıqla bağlı maariflənmişdir.
-2008-2010 cu illərdə Bakı, Naxçıvan Muxtar Respublikası Komitəsi, Sumqayıt, Gəncə, Mingəçevir, Sabirabad, Region Mərkəzlərində 5 İlk Yardım dəstələri yaradılmışdır.

-2008-2010 cu illərdə Bakı, Naxçıvan Muxtar Respublikası Komitəsi, Sumqayıt, Gəncə, Mingəçevir və Sabirabad Region Mərkəzlərində **5 İlk Yardım** tibbi-təlim mərkəzləri (məntəqələri) yaradılmışdır.
-İlk Yardım dəstələrinin fəaliyyəti sahəsində **3600** nəfər İlk Yardım vərdişlərinə yiyələnmişdir.
-Respublikada könüllü təmənnasız qan donorlarının sayını artırmaq məqsədilə Bakı, Naxçıvan Muxtar Respublikası Komitəsi, Sumqayıt, Sabirabad, Gəncə və Mingəçevir RM-də könüllü təmənnasız qan donorları şəbəkəsi - Klub 25 yaradılmışdır.
-Respublikada könüllü təmənnasız qan donorlarının sayını artırmaq məqsədilə 2010-cu il üçün **150.000** nəfər qan donorluğu haqqında maariflənmişdir.
-2008-ci ildə **1500** nəfər, 2009-ci ildə **1700** nəfər, 2010-cu ildə **2000** nəfər könüllü təmənnasız qan donoru olmuşdur.
-2008-2010 cu illərdə 50 nəfər azadlığa buraxılan vərəmli məhkumların davamlı müalicəsinə nəzarət olunmuşdur.
-2008-2010 cu il üçün 30 nəfər tibb bacısı tibbi-patronaj kurs (evdə qulluq, xəstə ilə davranış, sosial iş, psixoloji dəstək) üzrə təlim keçmişdir.
-2008-2010 cu il üçün 300 nəfər HİV və AİDS treynerləri hazırlanacaq və bununla 6000 insan maarifləndiriləcək.
-2008-2010 cu illərdə 60 nəfər AİDS TB xəstəsi səhiyyə maarifi işinə cəlb olunacaq və nəticədə bu xəstəliklərə düçar olmuş insanlara qarşı stiqma və diskriminasiya azalacaq.

**Fəaliyyətə təsir edən amillər:**

-Ölkədə sosial-iqtisadi stabilliyin pozulması;
-Dövlət və qeyri-dövlət strukturları ilə əməkdaşlıqda çətinliklər.

## Humanitar Dəyərlər, Beynəlxalq Humanitar Hüquq və Qızıl Xaç / Qızıl Aypara Hərəkatının Yayımı

1999-cu ildən Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçirilən «Humanitar dəyərlər» proqramının təbliğatında Cəmiyyətin İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsi mühüm rol oynayır. Proqram Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərkatının tərkib hissəsi olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyətləri Federasiyası ilə yaxın əməkdaşlıq şəraitində həyata keçirilir, Qızıl Xaç və Qızıl Aypara Hərkatının Yayımı isə 1997-ci ildən, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyinin maliyyə dəstəyi ilə həyata keçirilir. Həyata keçirilidiyi tarixdən sözü gedən proqramın əhali arasında daha da geniş yayımlanması məqsədilə proqrama könüllülər səfərbər olunur. Proqram əhalinin müxətəlif təbəqələri arasında təbliğ olunaraq, insanları humanizmə, yer üzündə sülhün bərqərər olmasına çağırır.

### STRATEJI MƏQSƏD

Humanitar Dəyərlərin, tolerantlığın, qeyri-diskriminasiya və insan ləyaqətinə hörmətin kənar yayımı vasitəsilə insan davranışının dəyişməsi istiqamətində dəyişməsində səylər göstərmək və Azərbaycan QAC-nin hüquqi əsası, QX/QA Hərəkatı, Fundamental Prinsiplər və onların tətbiqi haqqında daxili yayımı həyata keçirtmək.

### VƏZIFƏLƏR

-Əhali arasında Humanitar Dəyərlər haqqında biliklərin yayımını təmin etmək, zorakılıq və diskriminasiya qarşı kampaniyalar keçirmək
-Əhali arasıda BHH-un əsasları və QX / QAH-nın, Fundamental Prinsipləri haqqında biliklərin yayımını təmin etmək, QX / QA emblemlərindən düzgün istifadə edilməməsi hallarının qarşısını almaq.
-BHH-un əsasları və QX / QAH-nın, Fundamental Prinsipləri haqqında bilikləri, içtimaiyyət və əsasən AzQAC-nin könüllüləri, üzvləri, media və hərbiçilər arasında yaymaq.

### FƏALIYYƏT GÖSTƏRICILƏRI

-2008-2010 cu illə üçün 7 regional mərkəzi əhatə edən Yerli Bölmələrdə informasiya və yayım könüllüləri tərəfindən həyata keçirilən tədbirlərin sayı 10 tədbir təşkil edəcək. Nəticədə tədbirlər müxtəlif təbəqədən olan 5.000 insanı əhatə edəcək.
-Zorakılıq və diskriminasiyaya qarşı Naxçıvan MR Komitəsi, Lənkəran, Mingəçevir, Gəncə, Sabirabad və Sumqayıt RM-də keçirilən kampaniyaların sayı 2008-ci ildə 2-yə 2010-cu ildə isə 4-ə çatdırılacaqdır
-BHH-un əsasları və QX / QAH-nın, Fundamental Prinsipləri, QX / QA Emblemlərindən düzgün istifadə edilməməsinə qarşı Ali və Orta təhsil ocaqları, hərbi hissələr və ümumi əhali arasında keçirilən kampaniyaların sayı 2008-ci ildə 2-yə 2010-cu ildə isə 4-ə çatdırılacaqdır

**FƏALIYYƏTƏ TƏSIR EDƏN AMILLƏR**
-Keçirilən kampaniyalara əhali tərəfindən marağın olmaması
-Könüllülər tərəfindən proqrama marağın olmaması
-Keçirilən tədbirlərə hədəf qrupları tərəfindən marağın olmaması
-Maliyyənin olmaması

## TƏŞKİLATİ İNKİŞAF

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əsas üstünlüklərindən biri ondan ibarətdir Ki, ölkənin hər bir bölgəsində ehtiyacı olan insanlara xidmət edən yerli bölmələri mövcuddur. Bu gün Azərbaycanda belə imkanlara malik olan ikinci bir təşkilat yoxdur. Qızıl Aypara Cəmiyyətinin təşkilati inkişafının əsas məqsədi bütün işçilərinin bilik və bacarıqlarını artırmaq və vacib hissəsindən biri məhz onun yerli bölmələrinin gücləndirilməsidir.

Qızıl Aypara Cəmiyyətinin 7 reqional mərkəzi və 92 rayon və şəhər bölməsi vardır. Əsas zəifli k maddi-texniki bazanın və yerli icmalar ilə əlaqələrin qənaətbəxş olmamasıdır. Bu da icmaya əsaslanan fəaliyyət və xidmətlərin az olmasının nəticəsidir. Yerli bölmələrdə həyata keçirilən fəaliyyətlər heç də hər zaman yerli ehtiyaclar üzərində cəmləşmir və Qızıl Ayparanın əsas fəaliyyətləri ilə üst-üstə düşmür.

Ötən 3 il ərzində bəzi yerli bölmələrdə keçirilən fəaliyyətlərdə dönüş müşahidə olunur. Bu da keçirilən pilot layihənin nəticəsində əldə olunan müvəffəqiyyətdir. Bu pilot layihədə 6 yerli bölmələrin maddi-texniki bazası gücləndirilib. İşçi heyəti və könüllülər icma inkişafı ,Hərəkatın fundamental prinsilərinin yayımı, səhiyyə maarifləndirmə və ilk yardım üzrə treyninqlər keçmişlər. Bundan başqa yeni 4 bölmədə icmalar yaranmışı və onlara Qızıl Aypara fəaliyyətləri üzrə təlimlər keçirilir. Bu yeni bölmələr üçün ofis avadanlıqlarının alınması da nəzərdə tutulmuşdur.

**STRATEJİ MƏQSƏD**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin infrastrukturunu genişləndirmək (yeni bölmələrin və üzvlərin sayının artırılması) o cümlədən Naxçıvan Muxtar Respublikası Komitəsi, Regional mərkəzlər, rayon və şəhər bölmələrin fəaliyyətlərini təkmilləşdirmək və bununla daha effektiv, keyfiyyətli, yerli ehtiyaclara cavab verən xidmətlərin göstərilməsi.

**Vəzifə 1. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Katibliyinin və yerli strukturlarının imkanlarının artırılması və potensiallarının gücləndirilməsi**

-QAC-nin qanununa uyğun olaraq nizamnamədə müvafiq dəyişikliklər etmək
-Katibliyin və yerli strukturların işçilərinin professional bacarıqlarının artırmaq məqsədilə müvafiq treyninq və seminarların keçirilməsi.
-Cəmiyyətin üzvləri ilə işin gücləndirilməsi və üzvlük bazasının artırılması, icra, özünü idarəetmə strukturları və digər təşkilatlar ilə əməkdaşlığın gücləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi vasitəsilə əhaliyə daha effektiv xidmətlərin göstərilməsi.

-Ali rəhbərlik, Katiblik və yerli strukturlar arasında informasiya mübadiləsinin və kordinasiyanın gücləndirilməsi

**Fəaliyyət Göstəriciləri**

-2010–cu ilə qədər Katibliyin və yerli strukturların işçiləri professional bacarıqlarını artırmaq məqsədilə müvafiq treyninqlər aldı.
- 2010- ilə qədər üzvlərin sayı 300.000 təşkil etdi
-QAC-nin yerli strukturları, yerli icra, özünü idarəetmə strukturları və digər təşkilatlar ilə işlərini daha səmərəli qurmuşdur.

**Vəzifə 2. Yerli bölmələrdə zavallı icmalar ilə işi daha da inkişaf etdirməklə yerli ehtiyaclara cavab verə bilən xidmətlər göstərmək.**

- AzQAC missiyasına uyğun olaraq Yerli bölmələrin ehtiyaclarını yerlərdə müəyyən edib gələcəkdə müvafiq fəaliyyətlər keçirtmək məqsədilə icmalarda qiymətləndirmənin aparması
- AzQAC Katibliyi tərəfindən Yerli bölmələrin işçi heyətinin bilik və peşəkar səviyyələrini yüksəltmək məqsədilə təlim və treyninqlərin keçirilməsi

**Fəaliyyət Göstəriciləri**

- 2009 cu ilin sonunda 21 Rayon bölmələri tərəfindən 75 icmada qiymətləndirmə işi başa çatmış və müvafiq fəaliyyətlər həyata keçirilmişdir.
- 2010 cu ildə hər bir RB-də peşəkar kadrların olması (50% artırmaq)

**Fəaliyyətə təsir edən amillər**
-Yerlərdə baş verə biləcək hər hansı bir təbii fəlakət
-Yerli hökumət strukturları tərəfindən dəstəyin olmaması
-Sosial-iqtisadi stabilliyin pozulması

## MALİYYƏ

2001-ci ildən başlayaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti maliyyə mənbələrinin müxtəlifliyini təmin etmək məqsədilə, fandreyzinq və kiçik gəlir gətirmə fəaliyyətlərini həyata keçirməkdədir. Bundan başqa Qızıl Aypara işçilərinin maliyyə idarəçiliyi sahəsində biliklərini artırmaq məqsədilə müxtəlif seminar və treyninqlər keçirilmişdir.

Bakı şəhərinin müxtəlif yerlərində : mağazalarda, beynəlxalq bankın filiallarında,Azərbaycan kinoteatrında və şəhərdə təşkil olunan sərgilərdə ianə qutuları qoyulub.
Fandreyzing fəaliyyəti nəticəsinda əldə olunan vəsaitlərin hesabına 2005-2007 illər ərəfəsində 3905 nəfər zavallı insanlara , 500 nəfər yetim va əlil usaglara humanitar yardım edilib.

**Strateji məqsəd**

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə mənbələrinin müxtəlifliyin təmin etməklə stabil maddi-texniki bazanın yaradılması.**

**Vəzifə 1 . Nizamlanmış ümumi maliyyə idarəçilik və hesabat sistemini inkişaf etdirmək.**

- Katiblik və yerli strukturlar səviyyəsində maliyyə hesabatı sahəsində xüsusi treyninqlərin keçirilməsi.
- Cəmiyyətin maliyyə şəffaflığını təmin etmək məqsədilə 2008-2010 cu illərdə Katibliyin yerli şirkət tərəfindən ,2010-cu ildən sonra isə beynəlxalq şirkət tərəfindən auditin keçirilməsi.

**Fəaliyyət göstəriciləri**

- 2010 –cu ilin sonuna Az.QAC –in bütün yerli strukturlarında peşəkar maliyyə-hesabat sistemi quruldu.
- 2010 –cu il üçün Az.QAC –nin bütün şəhər və rayon bölmələrində yerli audit olunacaq.
- 2010 – cu il üçün Az.QAC Beynəlxalq audit keçirilməsinə qərar verməsi və bunu yeni 2010-2012 –ci il Strateji planında əks olunması.

**Vəzifə 2. Fandreyzinq fəaliyyətini genişləndirmək.**

- Qızıl Aypara Cəmiyyətini fandreyzinq siyasətini hazırlamaq

- Katiblik və yerli strukturlar səviyyəsində fandreyzinq üzrə biliklərinin artırılması məqsədilə seminar və treyninqlərin keçirilməsi.
- Humanitar fəaliyyətlərin həyata keçirilməsi məqsədilə ianə yığımı sistemini inkişaf etdirilməsi.
- Yerli və xarici donorları cəmiyyətin fəaliyyətlərini maliyyələşdirilməsinə cəlb etmək.
- Dövlət ilə əlaqələrin inkişaf etdirilməsi.
- Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası vasitəsilə diqər Milli Cəmiyyətlərlə ikitərəfli əlaqələrin qurulması.
- Fəaliyyət göstərən gəlir gətirmə sahələrini inkişaf etdirmək.

**Fəaliyyət göstəriciləri**
- 2008 –ci ildə fandreyzinq siyasəti hazırlanacaq.
- 2009-2010 –ci illər üçün Cəmiyyətin fandreyzinq üzrə Strateji iş planı hazırlanacaq.
- 2010 –cu ildə güclü fandreyzinq şöbəsi fəaliyyət göstərəcək və 2007 –ci ilə nisbətən fandreyzinqdən əldə olunan vəsaitlər 3 dəfə artırılacaq.
-2010 –cu il üçün yerli donorlar tərəfindən maliyyəşən layihələr cəmiyyətin büdcəsinin 30% təşkil edəcək.
-Pullu İlk yardım kurslarından əldə olunan gəlir 2007-ci ilə nisbətən 5 dəfə artacaq.
-2010 –cu ilin sonunda Katibliyin əmək haqqları və administrativ xərclər 100% Az.QAC tərəfindən ödəniləcək.

**Vəzifə 3. Kütləvi informasiya vəsitələrlə əlaqələri yaxşılaşdırmaq.**
- Qızıl Aypara fəaliyytləri haqqında məlumatları daha səmərəli yaymaq üçün KİV və içtimaiyyətlə əlaqələr sisteminin inkişaf etdirmək.
- KİV – ilə razılaşma əldə etmək.
- KİV – işçiləri üçün Qızıl Aypara və Qızıl Xaç hərəkatı haqqda treyniniq və görüşlər təşkil edilməsi
- Az.QAC –ti və KİV –ri xalqa xidmətdə bir olmalı.

**Fəaliyyət göstəriciləri**

- 2009 –cu ildə Az.QAC ilə KİV arasında razılıq əldə olunacaq.
- 2009-2010 –cu illərdə 50 nəfər KİV işçiləri ilə görüşlər keçiriləcək.
- 2008-2010 –cu illərdə Qızıl Aypara haqqında dərc olunan məqalələrin sayı 100-ə qədər olacaq.

**Fəaliyyətə təsir edən amillər**

**-Yerlərdə baş verə biləcək hər hansı bir təbii fəlakət**
**-Yerli hökümət strukturları tərəfindən dəstəyin olmasası**
**-Sosial-iqtisadi stabilliyin pozulması.**

**GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti gənclər strukturlarının təşkilati inkişafında tərəqqiyə nail olmuşdur. Qızıl Aypara rəhbərliyinin dəstəyi ilə, gənc könüllülərin fəaliyyətlərdə aktiv iştirakı,2005-2007-ci illərdə Beynəlxalq Federasiyanın, Qızıl Xac Komitəsinin,Yerli və xarici donurların dəstəyi Gənclər və könüllülərin fəaliyyətinə təkan vermişdir..

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Rəyasət heyətinin 29 oktyabr 2004-cü il tarixli qərarına əsasən, 85 illik şərəfli və əzmkarcasına fəaliyyət göstərən Qızıl Aypara Cəmiyyətinin tarixi səhifələrində ilk dəfə olaraq «Gənclər Komitəsi» yaradılmışdır.

Fəliyyət göstərən, Gənclər Komitəsi, Mərkəzi və Reqonal Gənclər şuraları yerli komitələrindən olan gənc könüllülərə öz məsələlərini müzakirə və fəaliyyətlərini koordinasiya etmək imkanı yaratmışdır.Gənc könüllülərin idarəolunmasında Gənc könüllülər üçün təlimatlar,treninq modullar, lider , sosial treyninqlər Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi və fəaliyyətləri haqqında sesiyalar, müxtəlif əyani vəsaitlər və atributlar hazırlanmışdır.6 Reqonal Mərkəzdə və 4 rayon komitəsində Gənclər klubları yaradılmışdır.Eyni zamanda bir neçə rayondada Gənclər klublarının yaradılması nəzərdə tutulub.1684 nəfər gənc konüllü lider və sosial treyninqlər almış, 374 nəfər kimsəsiz uşaqlara yay tətili düşərgəsi həyata keçirilmiş, 1003 nəfər az təminatlı ailələrin uşaqları üçün müxtəlif tədbirlər və humanitar yardımlar edilmişdir..
Gənclərin və könüllülərin qismən də olsa hərtərəfli tərəqqisinə, əsasən də sosial və maarifləndirmə sahəsinə üstünlüyü verməklə, gənclərimizin bilik səviyyələrinin artırılması, mənəvi təfəkkürlərinin inkişafı, sağlam həyat tərzinin formalaşması və ümumiyyətlə gənclər arasında müvafiq səmərəli fəaliyyətləri həyata keçirmək məqsədilə, insanlar və müstəsna olaraq gənclər arasında qarşılıqlı anlaşma, sülhün və həmrəyliyin bərqərar olması yönümündə məhsuldar və müdrik fəaliyyətlər həyata keçirir.

**Strateji Məqsəd**

Qızıl Aypara Cəmiyyətində Gənclər və könüllülərin idarəetmə, cəlb olunma və qeydiyyatının yaxşılaşdırılması məqsədilə effektiv Gənclər və Könüllülər idarəetmə sisteminin inkişaf etdlirilməsi və bununla Azərbaycanın bütün ərazisində QAC-nin bütün strukturlarının vasitəsi ilə sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin artırılması.

**Vəzifələr**

**Vəzifə 1. Könüllülərin idarəetmə, cəlb olunma və qeydiyyat sisteminin inkişaf etdirilməsi.**

-Göstərilən xidmətləri və hədəf qruplarını nəzərə alaraq, könüllülərin cəlb olunma fəaliyyətlərini həyata keçirmək;
-Könüllüləri cəlb olunduqları fəaliyyətlərin həyata keçirilməsi üçün müvafiq treyninqlərlə,seminarlarla,yeni modullarla təmin etmək;
-Könüllüləri həvəsləndirmək üçün yeni yollar aramaq;
-Regional səviyyədə Gənc Könüllülər Şuralarının və Gənclər klublarının işini gücləndirmək;
-2008-2010-cı illərdə inkişaf etdirilən idarəetmə, cəlb olunma və elektron qeydiyatı sistemi vasitəsilə Bas qərarqahın əlaqədar struktur bölmə və şöbələrinin, fəaliyyətlərinə cəlb olunan könüllülərin proqramlar üzrə fəaliyyətlərinin qarşılıqlı koordinasiya olunmasına köməklik göstərmək.

**Vəzifə 2. «Gənclər Komitəsi»-nin maddi- texniki bazasını gücləndirmək məqsədilə xarici və yerli donorlarla işin gücləndirilməsi**

-Gənclər Komitəsi»-nin əsasnaməsi, Komitənin məqsədləri və həyata keçirəcək fəaliyyətləri ilə müvafiq donorları tanış etmək.
-Mütəmadi olaraq donorlarla görüşlər təşkil etmək, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını rəhbər tutaraq, Cəmiyyətin Nizamnaməsi çərçivəsində danışıqlar aparamaq.

**Vəzifə 3. Dövlət və qeyri dövlət, Beynəlxalq Təşkilatlarla müvafiq sazişlərin bağlanması və onların təcrübəsindən yararlanmaq**.

-Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclərinin və könüllülərinin inkişafı və məhsuldar fəaliyyətlərin gerçəkləşməsi, könüllülərin və gənclərin asudə vaxtlarının səmərəli və mənalı keçməsi, könüllülərin cəlb olunması məqsədilə, lazımi müqavilə və sazişlərin bağlanması.

**Vəzifə 4. Gənclər və Könüllülərin cəlb olunacağı yeni proqramların inkişafı**

Gənclər və könüllülər Qızıl Ayparanın bütün fəaliyyətlərinə cəlb olunublar. Lakin proqramlar var ki onlar sırf könüllülərin və gənclərin iştirakı ilə həyata keçirilir. Məsələn: HİV\AİDS haqqında gənclər arasından məlumatların yayımı, kimsəsiz uşaq evlərində sosial fəaliyyətlər, fiziki və əqli cəhətdən qüsurlu olan uşaqlarla iş, yay düşərgələri, xilasediçi cevik Mobil qrupların yaradılması, əlil uşaqlar üçün reabilitasiya mərkəzi, isti xorək proqramları, idman tədbirləri və s.
Gənclər və könüllülər üçün yeni proqramların inkişafı Qızıl Aypara Cəmiyyətinin fəaliyyətlərinin səmərəliyini artırmaq imkanı verəcəkdir.

**Fəaliyyət göstəriciləri**

- 2010-cu ilin sonu üçün Gənclər Komitəsinin hüqüqi bazası və strukturu gücləndiriləcək
-2010-cı il üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti «Gənclər Komitəsi»-nin maddi-texniki bazası qismən də olsa gücləndiriləcək. «Gənclər Komitəsi»-nin əsasnaməsi və fəaliyyətləri ilə müvafiq donorlar tanış olacaq.
-2008-cı ildə müvafiq treyninqləri həyata keçirmək üçün bacarıqlı və peşəkar kadrlarımız tərəfindən sərbəst şəkildə regionlarda maarifləndirmə və lazımi fəaliyyətləri həyata keçiriləcəkdir.
-2009-cu il üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənc könüllüləri bütün Ali Rəhbər orqanlarında təmsil olunacaq
-2010-cı ilin sonu üçün 7 Regional mərkəzdə könüllülərin cəlb olunması, elektron qeydiyyat sistemi inkişaf etdiriləcək
-2010-ci il üçün Qızıl Ayparanın fəaliyyətlərinə cəlb olunmuş könüllülərin sayı 3400 nəfər artaraq 20.200 təşkil edəcəkdir.
-2010-ci ilin sonunda 7800 könüllü müvafiq treyninqlər alacaqlar.
-2009-cı il üçün Gənclərin cəlb olunacağı 5 layihə işə düşəcəkdir.

**Fəaliyyətə təsir göstərən amillər**

- Baş qərarqahın müvafiq bölmə və şöbə strukturları, Regional Mərkəzlər və yerli bölmələr səviyyəsində gənclərin və könüllülərin fəaliyyətinə dəstəyin verilməməsi;
-Gənclər proqramlarına maliyyə dəstəyinin olmaması
-Xarici və Yerli donorlar tərəfindən maliyyə dəstəyinin olmaması.
-İşçi kadrlarının azlığı
-Təcrübə mübadilələrinin həyata keçməməsi
-Könüllülərin axını

**Əlavə (1)**

**Strateji Planın Hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsi**

**-Strateji Planın hazırlanması**

Bu Strateji Plan son illərdə yazılan sayca üçüncüdür. İlk iki plan 2001-2003 və 2003-2005-ci llıər üçün tərtib olunmuşdur. Bu planın fərqi ondan ibarətdir ki, onun hazırlanma və tərtibat prosesi daha interaktiv olmuşdur.

Qızıl Ayparanın Ali Rəhbərliyi və Katiblik, Regional Mərkəzlər, yerli bölmələr, gənclər, könüllülər, həm Beynəlxalq Federasiya həm Beynəlxalq Qızıl Xaç Komitəsinin işçiləri bu prosesdə yaxından iştirak etmişlər. Proses bir neçə mərhələdən ibarət olmuşdur. Strateji Planın hazırlanmasına dair qərarın verilməsi, İşçi qrupun yaradılması, Tərəfdaşların iştirakı ilə geniş müzakirə və Strateji Planın hazılanma prosesi.

**1-ci mərhələ**
- 2007 ci ilin əvvəlində Strateji Planın işlənməsinə dair yeni tərkibli İşçi qrup yaradılmışdır.

**2-ci Mərhələ**
- May-İyun-İyul aylrında işçi qrup Bakı Mingəçevir Gəncə Sumqayıt və Lənkəran Regional Mərkəzlərində Strateji Plan üzrə görüşlər keçirmişdir.
-İşçi qrup Qızıl Ayparanın Missiyası, Təsviri və Strateji Planın Ali Məqsədinin təyin olunmasına dair Regional Mərkəzlərdən, yerli bölmələrdən, könüllülərdən, proqram rəhbərlərindən daxil olan təkliflərə baxmışdır;
-Proqram rəhbərləri müvafiq Strateji İstiaqamətlərə uyğun olaraq məntiqi çərçivələri hazırlamışlar;
-2008-ci ilin Fevral ayının ortalarında Strateji Planın ilkin variantı hazırlanır və müzakirə üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Ali Rəhbərliyi, Beynəlxalq Federasiyanın Bakı Nümayəndəliyi və Beynəlxalq Qızıl Xaç Komitəsinə müzakirələr üçün təqdim olunmuşdur;

**-Strateji Planın həyata keçirilməsi və qiymətləndirilməsi**

Strateji planın Ali Məqsədinə nail olmaq üçün Strateji İstiqamətlər çərçivəsində müvafiq proqramlar və layihələr həyata keçirilməlidir. Strateji məqsədlərin bir-biri ilə bağlı olduğundan, proqramların həyata keçirilməçi Qızıl Ayparanın şöbələri tərəfindən sıx əməkdaşlıq və inteqrasiya şəraitində həyata keçirilməlidir.

Hər bir Strateji Məqsədin və ümumiyyətlə Strateji Planın həyata keçirilməsinə dair tərəqqini qiymətləndirmək məqsədilə Monitorinq və Qiymətləndirmə Komissiya yaradılacaqdır. Komissiya hər bir strateji istiqamətə uyğun olaraq hesabatları nəzərdən keçirərək ildə 2 dəfə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Rəyasət Heyətinə müvafiq məlumatlar təqdim edəcəkdir.

**Əlavə (2)**

**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 2010-cu illər üçün Strategiyası**

| Strateji İstiqamətlər | Gözlənilən Nəticələr |
|---|---|

| | |
|---|---|
| **Tez cavab verə bilən və fokuslanmış**<br><br>Milli Cəmiyyətin proqramları yerlərdəki imkansızlığa tez cavab verir. Milli Cəmiyyətin proqramları diqqəti daha çox nəticə verə bilən sahələr üzərində cəmləşdirir. Hərəkatın Fundamental prinsipləri və humanitar dəyərlərin yayımına, fövqəladə hallara hazırlıq, fövqəladə hallara cavabvermə, icmada səhiyyə və qayğıya kollektiv nəzər diqqət yetiriləcək. | **Milli Cəmiyyətin proqramları** yerli əhalinin imkansızlığı, potensial təsiri, digər təşkilatların imkanları və Qızıl Xaç / Qızıl Ayparanın müqayisəli üstünlükləri əsasında yaradılır / həyata keçirilir / dayandırılır. |
| | Milli və beynəlxalq səviyyədə siyasi qərarlar vasitəsilə başlıca sahələrdən hər birində maraqların müdafiəsi və xidmət göstərilməsi üzrə **keyfiyyət meyarları** qəbul edilir. |
| | Ümumfederasiya **qiymətləndirmə sistemi** bütün başlıca sahələrdə və "yaxşı fəaliyyət göstərən Milli Cəmiyyətin" xüsusiyyətinə nail olması prosesində ölçülü tərəqqi göstərir. |
| **Yaxşı fəaliyyət göstərən Milli Cəmiyyətlər**<br><br>Yardımı səfərbər edə bilən və vətəndaş cəmiyyətin qurulmasına kömək edərək öz humanitar missiyasını həyata keçirən Milli Cəmiyyətlərdir. | Milli Cəmiyyətlər **könüllülərin cəlb edilməsinin müxtəlif modelləri** ilə işləyir. Əhalinin tərkibi, xüsusən cinsi əlamətləri, etnik qruplar və gənclərin iştirakı baxımından **rəhbər orqanlarda** daha yaxşı əks olunur. |
| | Milli Cəmiyyətlər daha müxtəlif və daha möhkəm **maliyyə resursu bazasına** malikdirlər. |
| | Qızıl Xaç / Qızıl Aypara insanları səfərbər edir və başlıca sahələrdə **maraqları fəal şəkildə müdafiə etməklə** qərarların qəbuluna təsir göstərir |
| **Birgə səmərəli şəkildə çalışan**<br><br>Qızıl Xaç / Qızıl Aypara və onun tərəfdaşları proqram əməkdaşlığı, uzun müddətli tərəfdaşlıq və maliyyələşdirmə, eləcə də maraqların müdafiəsi sahəsində daha aktiv fəaliyyət vasitəsilə birlikdə səmərəli şəkildə çalışırlar. | Razılaşdırılmış **"əməkdaşlıq strategiyaları"** nın tam toplusu humanitar fəaliyyət və imkanların qurulması sahəsində yaxşı işlənilib hazırlanmış əməkdaşlıq proqramlarını müəyyən edir. |
| | **İnformasiya əldə etmək və təcrübə mübadiləsi** dərslərini nümayiş etdirmək imkanının artması, (yarım) regional və qlobal səviyyədə. |
| | Daha çox Milli Cəmiyyət uzunmüddətli əsasla **inkişaf üzrə əməkdaşlığa** beynəlxalq səviyyədə köməklik edirlər. |
| | Bütün tərkib hissələr **Hərəkatın ümumi strategiyasını** birlikdə işləyib hazırlayır və həyata keçirirlər. |

## Əlavə (3)

## BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATI

### Beynəlxalq Qızıl Xaç Komitəsi
### Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası

## Milli Cəmiyyətlər (Azərbaycan Qızıl Aypara Cəmiyyıti Azərbaycanın Milli Cəmiyyətidir)

Neytral və müstəqil bir təşkilat olan **Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK)** müstəsna humanitar səlahiyyəti müharibə və daxili iğtişaş qurbanlarının həyatını və ləyaqətini qorumaq, onlara yardım göstərməkdən ibarətdir. O, münaqişə vəziyyətində Hərəkat tərəfindən həyata keçirilən beynəlxalq yardım fəaliyyətini istiqamətləndirir və tənzimləyir. O, həmçinin, dünyəvi humanitar prinsipləri və humanitar hüququ təbliğ etmək və möhkəmləndirmək yolu ilə əzab-əziyyətlərin qarşısını almağa çalışır. BQXK 1863-cü ildə yaradılmışdır və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının banisidir.

**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Federasiya)** dünyada ən böyük humanitar təşkilat kimi insanlara heç bir milli və ya irqi fərq qoymadan, dini mənsubiyyəti və ya siyasi əqidəsindən asılı olmayaraq yardım edir. **Federasiyanın missiyası insanpərvərlik gücünü səfərbər etməklə zavallı insanlara yardım etməkdir.**
1919-cu ildə yaradılmış Beynəlxalq Federasiya onun üzvü olan dünyanın 187 ölkəsinin Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Cenevrədə yerləşən Katiblik və dünyanın hər yerində aparılan işlərə dəstək vermək üçün strateji şəkildə yerləşdirilmiş 61 nümayəndəlikdən ibarətdir. Beynəlxalq arenada Federasiya ona daxil olan cəmiyyətlərin üzvlərinin rəsmi təmsilçisi kimi çıxış edir. O, milli cəmiyyətlər arasında əməkdaşlığı inkişaf etdirir və onların təbii fəlakətlər, səhiyyə və sosial proqramlara hazırlıq sahəsində imkanlarını möhkəmləndirir.



**Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri** öz dövlət orqanlarına humanitar fəaliyyət sahəsində yardımçı rolunu oynayır və onları təbii fəlakətlər zamanı yardımın göstərilməsi, səhiyyə və sosial proqramlarda iştirak kimi, bir sıra xidmət spektrləri ilə təmin edir. Hərbi əməliyyatlar zamanı milli cəmiyyətlər zərər çəkmiş mülki əhaliyə köməklik göstərir və ehtiyac olduqda onları tibbi xidmətlə təmin edir.

Bütövlükdə Milli Cəmiyyətlər hər il 233 milyondan artıq insana yardım göstərən təxminən 105 milyon könüllü və 300 min əməkdaşı öz sıralarında birləşdirir.

**Bütün Qızıl Xaç və Qızıl Aypara Hərəkatının fəaliyyətinin bir məqsədi var: ayrıseçkilik etmədən bədbəxtliyə düçar olmuşlara köməklik göstərmək və bununla da bütün dünyada sülhün bərqərar olmasını təmin etmək.**

**Əlavə (4)**

## BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATININ FUNDAMENTAL PRİNSİPLƏRİ

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

**QƏRƏZSİZLİK**

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

**NEYTRALLIQ**

Hamının ona olan inamını qoryub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

**MÜSTƏQİLLİK**

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

**KÖNÜLLÜ XİDMƏT**

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

**VAHİDLİK**

Bir ölkədə yalnız bir Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

**UNİVERSALLIQ**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birlərinə kömək etməyə borcludurlar.